BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT 343.1**

# CİNAYƏT PROSESİNDƏ İMMUNİTET HÜQUQİ KATEQORİYA KİMİ

**L.İ.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***m.lala26@hotmail.com***

*Məqalədə müəllif Cinayət prosesində immunitetlərin mövcudluğunun onun təməl prinsiplərin birinə – hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi prinsipinə zidd olmamasını, onunla uzlaşmalı və orqanik qarşılıqlı münasibətdə çıxış etməli olduğunu qeyd etmişdir. Cinayət prosesində immunitetlərin cinayət-prosessual qanunvericiliklə təsbit edilmiş vahid prosessual formadan istisnalar olduğunu bildirmişdir. Prosessual formanın vahidliyi cinayət prosesinin bütün işlər və bütün şəxslər barəsində eyni prosessual qaydalarda aparılmalı olmasına dair tezisni ifadə edən kateqoriya olması məqalədə qeyd edilir. Müəllif məqalədə cinayət prosesində mövcud olan immunitetlərin müxtəlif əsaslar üzrə təsnifatını aparmağın mümkünlüyündən bəhs etmişdir.*

**Açar sözlər:** cinayət prosesi, bərabərlik prinsipi, immunitet, diferensasiya

«İmmunitet» termini latın dilində *immunitas* sözündən götürülmüşdür, etimologiya baxımından mənası “nədənsə azad olmaq” deməkdir. Azərbaycan dilinin izahlı lüğətində «immunitet» termini yalnız tibb və ya biologiya termini kimi izah edilsə də (immunitet – orqanizmin yoluxucu xəstəliyə tutulmamaq qabiliyyəti), hüquq elmində immunitet (daha doğrusu hüquq elmində «hüquqi immunitet» kateoriyasından istifadə edilir – müəllif) dedikdə, hər hansı subyektin toxunulmazlığı, yaxud ona əlavə hüquqların və ya imtiyazların verilməsi nəzərdə tutulur (2, 539; 9, 103).

Cinayət prosesində immunitetlərin mövcudluğu onun təməl prinsiplərinin birinə – hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi prinsipinə zidd olmamalı, onunla uzlaşmalı və orqanik qarşılıqlı münasibətdə çıxış etməlidir. Doğrudur, geniş anlamda immunitetlər onların daşıyıcıları olan subyektlərə müəyyən üstünlüklərin (imtiyazların, güzəştlərin, əlavə hüquqların) verilməsindən ibarətdir. Lakin belə üstünlüklərin immunitet kimi çıxış etməsi üçün onların, ilk növbədə, qanunla əsaslandırılmış olma kriteriyasına cavab verməsi tələb edilir, zira cinayət prosesini həyata keçirən orqanlar qanunla əsaslandırılmamış hər hansı bir mülahizəyə görə kimsəyə üstünlük vermir (Azər-

baycan Respublikası CPM-in 11.2-ci maddəsi). Azərbaycan Respubliasının Cinayət Məcəlləsində həmin prinsip «qanun qarşısında bərabərlik prinsipi» kimi təsbit edilmişdir (Azərbaycan Respublikası CM-in 6-cı maddəsi). Onun məzmununa görə, cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər və irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunurlar. Bu prinsipi şərh edən müəlliflər qeyd etmişdirlər ki: «… cinayət etmiş şəxslərin qanun qarşısında bərabərliyi törədilən eyni cinayətə görə məsuliyyətin eyni əsaslarla və eyni həddə yaranmasında, cinayət məsuliyyətindən və cəzadan azad etmənin, məhkumluğun ödənilməsinin və götürülməsinin eyni əsaslarla həll edilməsində ifadə olunur … CM-in 6-cı maddəsində təsbit olunan prinsip törədilən eyni kriminal əmələ görə sıravi vətəndaşların və vəzifəli şəxslərin, habelə xüsusi səlahiyyət üzrə fəaliyyət göstərən şəxslərin arasında fərq qoymur, onlar eyni əsaslarla məsuliyyət daşıyırlar … törədilən ağır cinayətə görə uyğun sərt cəzanın tətbiq edilməsi də cinayət məsuliyyətinin bərabərləşdirici prinsipinin müddəalarına söykənir» (3, 26).

Milli hüquq ədəbiyyatında qeyd edilir ki, Azərbaycan Respublikası CPM-in 11.2-ci maddəsində «qanunla əsaslandırılmamış» ifadəsinin işlədilməsi o demək deyildir ki, qanunla şəxsin istənilən hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yol verilir. Qanunla o hüquq və azadlıqlar məhdudlaşdırıla bilər ki, onlar nisbi hüquqlara aiddir və həmin hüquqların məhdudlaşdırılmasına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, Azərbaycan Respublikasının Konstitusiyasında yol verilir (4, 74).

İstənilən differensiasiyanın (o cümlədən immunitetlərin – müəllif) qanunla əsaslandırılmış olma kriteriyası h.e.d. F.M.Abbasova tərəfindən də maraqlı şəkildə izah edilmişdir. Müəllif qeyd edir ki, bir qayda olaraq, prosessual forma hamı və hər kəs üçün, bütün cinayət işləri üzrə vahiddir. Bu müddəa hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi prinsipinin tələblərindən irəli gəlir. Lakin qanun bəzi hallarda prosessual formanın differensiasiyasına, yəni fərqləndirilməsinə yol verir. Bu halı heç də hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi prinsipinin pozulması kimi başa düşmək olmaz. Çünki bəzi hallarda xüsusi amilləri nəzərə almadan ümumi prosessual qaydanın tətbiq edilməsi cinayət prosesinin lüzumsuz uzadılmasına səbəb olur (məsələn, bütün işlər üzrə ibtidai istintaqın aparılması məcburi olsaydı, hər cinayət işi üzrə zəruri həddən artıq prosessual hərəkətlər edilməli və prosessual aktlar tərtib edilməli olardı), konstitusion və ya beynəlxalq xarakterli təminatları təhlükə altına qoyur (məsələn, diplomatik immunitetdən istifadə edən şəxslər barədə həyata keçirilən istintaq hərəkətlərinin qaydaları fərqləndirilməsəydi, bu dövlətlərarası anlaşılmazlıqlara səbəb olardı) və s. səbəblərdən ümumilikdə onun effektivliyinə xələl gətirir. Bir sıra obyektiv amillər bəzi hallarda xüsusi prosessual qaydaların tətbiq edilməsini şərtləndirir.

Bununla belə, yadda saxlamaq lazımdır ki, prosessual qaydanın diferensasiyasına cinayət prosesini həyata keçirən subyektin öz mülahizəsinə görə yol verilmir. Vahid prosesessual qaydaların bütün differensiasiyaları mütləq qanunda nəzərdə tutulmuş olmalıdır. Cinayət prosesini həyata keçirən subyekt qanunla nəzərdə tutulmadığı hallarda prosessual qaydanı nə sadələşdirə, nə də mürəkkəbləşdirə bilər (1, 19-20).

Digər dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da qanun qarşısında qeyri-bərabərliyə yol verilir. Bəzi hallarda bu, digər konstitusion hüquqi dəyərlərin müdafiəsi nöqteyi-nəzərindən zəruri olur. Bu qeyri-bərabərlik hakimlərin, deputatların, dövlətin digər kateqoriyalardan olan vəzifəli şəxslərinin hüquqi məsuliyyətə cəlb edilməsi qaydasına şamil edilir. Qanun qarşısında həmin qeyri barəbərlik (immunitet) müəyyən kateqoriyadan olan vəzifəli şəxslərin hüquqi təhlükəsizlik və müstəqilliyini təmin edən imtiyazını özündə ifadə edir. Qərəzsiz məhkəmə qarşısında hamının bərabərliyi, hüquq haqqında mübahiəsinin iştirakçılarının formal bərabarəliyi deməkdir. Əmlak və vəzifə mövqeyindən asılı olmayaraq məhkəmə qarşısında formal olaraq hamı bərabarədir. Hüquqların yalnız məhkəmə qərarı əsasında məhdudlaşdırılmasına yol verilməsi də bununla izah olunur. Qanun və məhkəmə qarşısında hamının bərabərliyinin elan edilməsi zəruri olsa da, bərabər hüquqluluğun kifayətedici şərti deyildir. Əgər qanun imtiyazlar müəyyən edir və ya müəyyən kateqoriyadan olan şəxslərin hüquqlarını məhdudlaşdırırsa, onda hamının qanun qarşısında bərabərliyi qeyri-bərabərliyi ifadə edir (4, 8).

Cinayət prosesində immunitetlər cinayət-prosessual qanunvericiliklə təsbit edilmiş vahid prosessual formadan istisnalardır. Prosessual formanın vahidliyi cinayət prosesinin bütün işlər və bütün şəxslər barəsində eyni prosessual qaydalarda aparılmalı olmasına dair tezisi ifadə edən kateqoriyadır. Bu tezisin sistemyaradıcı əhəmiyyəti onun antitezisizinə nəzər salmaqla müəyyən edilə bilər. Belə ki, hər bir iş üzrə icraatın fərqli prosessual qaydalarda həyata keçirilməli olması tesizi bütünlükdə cinayət prosesinin vahid sistemini, onun prinsiplərinin ümumi hüquqi qüvvəsini, hüquq və azadlıqların bərabərliyi ideyasını istisna etmiş olur ki, bu da dövlət fəaliyyətinin bütün bir hissəsini – hüquq-mühafizə və cinayət ədliyyəsini tamamilə nizamsız, xaotik bir hadisəyə çevirir. Deməli, cinayət-prosessual formanın vahidliyi, ilk növbədə, cinayət prosesinin özünün vahid sistemi ilə şərtlənir (5, 74).

Göründüyü kimi, cinayət prosesində immunitetlər hüquqi immunitetlərin bir növü olub, onların daşıyıcısı olan subyektlərə konkret hüquq münasibətləri sistemi çərçivəsində müəyyən üstünlüklər verən bir kateqoriyadır. Bu kateqoriya qanunilik (qanunda təsbit edilmiş və əsaslandırılmış olma) tələbinə cavab verməklə, qanunla qadağan edilmiş digər üstünlüklərdən (vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olaraq verilən üstünlüklərdən) fərqləndirilir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikası CPM-in 11.2-ci

maddəsi kontekstindən, orada sadalanan əlamətlərin heç də hamısı üzrə müəyyən «üstünlüklərin» verilməsi tam anlamda qadağan deyildir, hətta bəzən qanunun özü bu üstünlüklərin verilməsini şərtləndirir. Milli hüquq ədəbiyyatında qeyd edilir ki, Azərbaycan Respublikası CPM-in 11.2-ci maddəsində bir sıra əlamətlər sadalanmışdır ki, maddənin məzmununa əsasən, bu əlamətlərə görə cinayət prosesində iştirak edən şəxslərə üstünlük verilmir. Lakin həmin əlamətlərdən ikisinin bu müddəa ilə tam uzlaşması müzakirəyə açıq qalır. Söhbət cinsi mənsubiyyət və istifadə edilən dildən (ana dili mənsubiyyətindən) gedir. Qüvvədə olan qanunvericilik bu iki əlamət üzrə bəzi üstünlüklər müəyyən edir desək yanılmarıq. Belə ki, Azərbaycan Respublikası CPM-in bəzi müddəalarında cinsi mənsubiyyət prosessual formada müəyyən diferensiyasiya aparılmasına səbəb olur. Məsələn, Azərbaycan Respublikası CPM-in 238.5-ci maddəsinə əsasən, əks cinsdən olan şəxsin soyundurulması zərurəti yarandığı halda müstəntiq, təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi həmin istintaq hərəkətinin aparılmasında iştirak edə bilməz. Bu halda müstəntiqin tapşırığı ilə şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə aparılır; CPM-in 246.3-cü maddəsinə əsasən, şəxsi axtarış və götürmə müstəntiq tərəfindən mütəxəssisin və barəsində şəxsi axtarış aparılan şəxslə eyni cinsdən olan azı iki hal şahidinin iştirakı ilə aparılır; CPM-in 275.6-cı maddəsinə əsasən, müstəntiq və ya onun göstərişi əsasında digər şəxs zəruri hərəkətləri aparır və əks cinsdən olan şəxsin soyunması ilə bağlı hallar istisna olmaqla, bu istintaq hərəkətinin aparılmasında iştirak edən digər şəxslərin yanında tədqiqat üçün nümunələri götürür. Eləcə də dil bilgiləri ilə əlaqədar olaraq cinayət-prosessual qanunvericilik, faktiki olaraq, əlavə hüquqlar sistemi müəyyən edir. Belə ki, Azərbaycan Respublikası CPM-in 26.2-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqan cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarının aşağıdakı hüquqlarını təmin etməlidir: cinayət prosesi iştirakçılarına öz ana dilindən istifadə etmək hüququnu izah etmək; ibtidai araşdırma və məhkəmə baxışı zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək, ibtidai araşdırma qurtardıqdan sonra cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallarla tam tanış olmaq, məhkəmədə ana dilində çıxış etmək. Azərbaycan Respublikası CPM-in 26.4-cü maddəsinə əsasən isə, cinayət mühakimə icraatının aparıldığı dili bilməyən müvafiq şəxslərə təqdim edilməli sənədlər onların ana dilində və ya onların bildiyi başqa dildə təqdim edilir. Bununla belə, Azərbaycan Respublikası CPM-in 11.2-ci maddəsindən qeyd edilən istisnalar hüquq və azadlıqların təminatı prioritet məqsəd kimi qəbul edilən müasir dövrdə prosessual formanın pozuntusu kimi deyil, əlavə təminatlar kimi qiymətləndirilməlidir (5, 76-77). Cinayət prosesində mövcud olan immunitetlərin müxtəlif əsaslar üzrə təsnifatını aparmaq mümkündür. Onlardan daha müfəssəli V.K.Obednin tərəfindən təklif edilmişdir. O, cinayət prosesində mövcud olan immunitetləri aşağıdakı kimi təsnifləşdirməyi təklif edir (7, 91; 6, 45-46):

1) Qəbul edilən qərarların növlərinə görə immunitetlər aşağıdakı kimi bölünür:

– cinayət təqibindən immunitet;

– ifadə verməkdən immunitet;

– axtarışdan, götürmədən, əmlak üzərinə həbs qoymadan, baxışdan və binada girişdən immunitet.

2) Cinayət prosesinin iştirakçılarına görə immunitetlər aşağıdakı kimi bölünür:

– zərər çəkmiş şəxsin immuniteti;

– şahidin immuniteti;

– ekseprtin immuniteti;

– mülki iddiaçı və mülki cavabdehin immuniteti;

– xüsusi ittihamçının immuniteti.

3) İmmunitetlə tənzim edilən münasibətlərə görə immunitetlər aşağıdakı kimi bölünür:

– hüquqi rəqabəti tənzim edən immunitet;

– mənəvi raqabəti tənzim edən immunitet.

Ədəbiyyatda bu təsnifatdan başqa, prosessual immunitetlərin sistemi barədə də maraqlı fikirlər bildirilmişdir. Məsələn, S.V.Lukoşkina özünün «Rusiya cinayət mühakimə icraatında immunitetlər» adlı dissertasiya tədqiqatında cinayət-prosessual immunitetlərin aşağıdakı sistemini təklif etmişdir (6, 46-47):

– diplomatik və konsulluq immuniteti;

– dövlət başçısının immuniteti;

– qanunvericilik hakimiyyəti nümayəndələrinin immuniteti;

– məhkəmə hakimiyyəti nümayəndələrinin immuniteti;

– hüquq mühafizə və nəzarət orqanlarının vəzifəli şəxslərinin immuniteti;

– vəkil immuniteti;

– şahidlik immuniteti.

S.V. Lukoşkina qeyd edir ki, yuxarıda verilmiş təsnifatda immunitetlərin subyektiv əlamətləri rəhbər tutulmuşdur, bununla yanaşı olaraq, immunitetləri onların təminat obyektlərinə görə də təsnifləşdirmək mümkündür (6, 47):

– şəxsi toxunulmazlıq;

– yaşayış və xidməti binaların, şəxsi qərargahların, şəxsi və xidməti nəqliyyat vasitələrinin toxunulmazlığı;

– rabitə imtiyazları;

– əmlakın, aktivlərin, şəxsi və xidməti yazışmaların, arxivlərin və digər sənədlərin toxunulmazlığı.

Diplomatik immunitet hüququna malik olan şəxslər barəsində və ya onların iştirakı ilə həyata keçirilən icraatın (cinayət-prosessual fəaliyyətin) differensiasiya əsasları müstəqil Azərbaycan Respublikasının hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulan və həyata keçirilən xarici siyasəti və onun tərəfdar çıxdığı beynəlxalq müqavilərin tələbləridir. Qeyd edilən differensiasiya Azərbaycan Respublikası

CPM-in LI fəslində aparılmışdır. Milli hüquq ədəbiyyatında qeyd edilir ki, Azərbaycan Respublikası CPM-in LI fəsli, Azərbaycan Respublikasının yurisdiksiyası altına düşdükdə, xarici dövlətlərin və beynəlxalq təşkilatların diplomatik immunitetə malik olan nümayəndələri barəsində icraatın xüsusiyyətlərini tənzim edir (3, 1169). Hesab edirik ki, belə yanaşma ilə razılaşmaq olmaz, çünki bu cür izah, həm yurisdiksiya altına düşmə, həm də diplomatik immunitet kateqoriyalarının doğru başa düşülməsinə mane olur. Nəzərə almaq lazımdır ki, yurisdiksiya altına düşmə dedikdə, cinayət mühakimə icraatına münasibətdə xarici vətəndaşın ərazisində olduqları dövlətin qanunları əsasında cinayət məsuliyyətinə cəlb edilməsinin, cinayət təqibinə məruz qalmasının yolverilən olması başa düşülürsə, dimlomatik immunitet bir sıra imtiyazlarla yanaşı, məhz cinayət yurisdiksiyasından da immuniteti, yəni bu immunitetə malik olan şəxsin cinayət təqibinə məruz qalması və cinayət məsuliyyətinə cəlb edilməsi məsələsinin, onun, ərazisində olduğu dövlətin qanunları əsasında deyil, mənsub olduğu dövlətin qanunları əsasında həll edilməli olması haqqında dövlətlər arasında ikitərəfli qəbul edilmiş qaydanı ehtiva edir (7, 90-91; 9, 24-25).

Cinayət yurisdiksiyası məsələsinin cinayət qanunun qüvvəsi ilə bağlı olduğunu unutmaq olmaz. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş xarici dövlətlərin diplomatik nümayəndələrinin və toxunulmazlıq hüququna malik olan digər şəxslərin cinayət məsuliyyəti haqqında məsələ beynəlxalq hüquq normalarına uğun olaraq həll edilir (Azərbaycan Respublikası CM-in 11.5-ci maddəsi).

Belə olan təqdirdə, əgər fikrinə istinad edilmiş milli müəlliflərin fikirlərinin doğru olduğunu fərz etsək, belə çıxacaqdır ki, Azərbaycan Respublikası CPM-in LI fəslinin normaları diplomatik immunitet hüququndan istifadə edən şəxslərin Azərbaycan Respublikasının yurisdiksiyasına altına düşməsindən sonra onlara tətbiq edilməlidir. Həqiqətən də, belədirmi? Azərbaycan Respublikası CPM-in LI fəslinin normaları belə deməyə əsas verir ki, belə deyildir! Azərbaycan Respublikası CPM-in 439-cu maddəsində, birmənalı olaraq, diplomatik immunitet hüququna malik olan şəxslərin (bəzi istisnalar olmaq şərti ilə) cinayət yurisdiksiyası üzrə immuniteti təsbit edilmişdir, həmin şəxslərin şübhəli və ya təqsirləndirilən şəxs qismində xəlb edilməsi diplomatik yolla həll edilməlidir. Əslində, Azərbaycan Respublikası CPM-in LI fəslinin normaları diplomatik immunitet hüququndan istifadə edən şəxslərin Azərbaycan Respublikasının yurisdiksiyasına altına düşməsindən sonra onlara tətbiq edilmir, bu normalar həmin şəxslərin barəsində yurisdiksiya altına düşən şəxslər barədə tətbiq edilən normalardan fərqli normaların tətbiq edilməsini şərtləndirir. Fikrimizi daha aydın arqumentasiya etmək üçün bir situasiya modelləşdirmək istərdik: fərz edək ki, cinayət hadisəsinin şahidi olmuş A.-dimlomatik immunitet hüququna malik olan şəxs statusuna malikdir. A.-nın belə statusu ona şahid qismində ifadə vermək üçün müstəntiqin və ya prokurorun yanına gəlməmək hüququ verir, eləcə də bu status ona öz ifadələrini

müvafiq orqana yazılı şəkildə göndərmək imkanı yaradır (ifadə vermək üzrə immunitet qaydaları – CPM-in 440.1-ci maddəsi). A. qeyd edilən imkanın hər ikisindən istifadə edir və hüquq mühafizə orqanına yalnız yazılı ifadələr göndərməklə kifayətlənir. Göründüyü kimi, bu halda diplomatik immunitet hüququndan istifadə edən şəxs barəsində Azərbaycan Respublikası CPM-in LI fəslinin norması – 440-cı maddə tətbiq edilmiş olur, lakin bu heç də o demək olmur ki, A. Azərbaycan Respublikasının yurisdiksiyasının altına düşür, zira o, hələ də ifadə verməkdən imtina etməyə görə Azərbaycan Respublikası CM-in 298-ci maddəsi ilə (şahidin və ya zərər çəkmiş şəxsin ifadə verməkdən imtina etməsi – üç yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ildən iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır) cinayət məsuliyyətinə cəlb edilə bilmir (başqa sözlə, cinayət yurisdiksiyası üzrə immunitetdən istifadə etməyə davam edir).

Odur ki, Azərbaycan Respublikası CPM-in LI fəslinin təyinatını istinad edilmiş milli müəlliflərin mövqeyindən izah etməyi doğru hesab etmirik. Azərbaycan Respublikası CPM-in LI fəslinin təyinatı beynəlxalq müqavilələrlə müəyyən edilmiş imtiyaz və immunitetə malik olan şəxslərin barəsində aparılan və ya onların şahid, yaxud zərər çəkmiş şəxs qismində iştirak etdikləri icraat zamanı tətbiq edilməli olan, beynəlxalq hüquq prinsipləri ilə şərtlənmiş və ümumi prosedur qaydalarla müqayisədə diferensiyasiya edilmiş normaların sisteminin müəyyən edilməsidir.

Qeyd edilənlərdən sonra belə bir sual yaranır: cinayət prosesində diplomatik immunitet hüququndan kimlər istifadə edir?

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 437-ci maddəsi bu sualı cavablandırılmışdır. Həmin maddəyə əsasən, diplomatik immunitet hüququndan aşağıdakı şəxslər istifadə edirlər:

1) xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri, həmin nümayəndəliklərin diplomatik heyətinin üzvləri və onlarla birgə yaşadıqda və Azərbaycan Respublikasının vətəndaşları olmadıqda, onların ailə üzvləri;

2) qarşılıqlı və ikitərəfli dövlətlərarası müqavilələrə uyğun olaraq diplomatik nümayəndəliklərin inzibati-texniki heyətinin əməkdaşları və onlarla birgə yaşayan ailə üzvləri, həmin əməkdaşlar və onların ailə üzvləri Azərbaycan Respublikasının vətəndaşları olmadıqda və Azərbaycan Respublikasında daimi yaşamadıqda;

3) qarşılıqlı və ikitərəfli dövlətlərarası müqaviləyə uyğun olaraq diplomatik nümayəndəliklərin Azərbaycan Respublikasının vətəndaşları olmayan və ya Azərbaycan Respublikasında daimi yaşamayan xidmət heyətinin əməkdaşları;

4) diplomatik kuryerlər;

5) konsulluqların rəhbərləri və konsulluğun digər vəzifəli şəxsləri;

6) xarici ölkələrin nümayəndələri, parlament və hökumətin nümayəndə heyətlərinin üzvləri, habelə qarşılıqlı və ikitərəfli dövlətlərarası müqaviləyə

uyğun olaraq beynəlxalq danışıqlarda, beynəlxalq konfranslarda və müşavirələrdə iştirak etmək üçün və ya digər rəsmi tapşırıqlarla ölkəyə gələn, yaxud həmin məqsədlər üçün tranzitlə ölkə ərazisindən keçən xarici ölkə nümayəndə heyətlərinin əməkdaşları və Azərbaycan Respublikasının vətəndaşları olmadıqda, həmin şəxsləri müşayiət edən ailə üzvləri;

7) beynəlxalq sazişlər və ya hamılıqla qəbul edilmiş beynəlxalq adətə uyğun olaraq xarici ölkələrin beynəlxalq təşkilatlarda nümayəndəliklərinin rəhbərləri, üzvləri və heyəti, həmin təşkilatların Azərbaycan Respublikasının ərazisində olan vəzifəli şəxsləri;

8) Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçən xarici ölkələrin üçüncü ölkələrdəki diplomatik nümayəndəliklərinin rəhbərləri, nümayəndəliklərin diplomatik heyətinin üzvləri və onları müşayiət edən və ya onlara qoşulmaq üçün, yaxud öz ölkələrinə qayıtmaq üçün onlardan ayrı gedən həmin şəxslərin ailə üzvləri.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 437-ci maddəsi qapalı siyahı müəyyən etdiyinə görə, kifayət qədər konkret hüquq norması hesab edilə bilər, bununla belə, onun formulə edilməsi zamanı blanket normaların qurulması metodundan geniş istifadə edilmişdir. Belə ki, CPM-in 437-ci maddəsinin doğru dərk və tətbiq edilməsi üçün onun öz məzmununda istifadə edilmiş bir sıra terminlər məhz beynəlxalq hüquqi aktlara istinad edilməklə şərh edilməlidir. Odur ki, fikrimizcə, həmin maddədə istifadə edilmiş bir sıra əsas terminlərin hansı məzmunda başa düşülməli olması barədə məlumat vermək məqsədəuyğun olardı. Beləliklə, diplomatik nümayəndəlik yerləşdiyi dövlətdə akkreditə edən dövləti təmsil etmək, beynəlxalq hüquqla yol verilən hüdudlarda yerləşmə dövlətində akkerditə edən dövlətin və onun vətəndaşlarının mənafelərini müdafiə etmək, yerləşmə dövlətinin hökuməti ilə danışıqlar aparmaq, yerləşmə dövlətindəki şərait və hadisələri qanuni yolla müəyyən etmək və bunlar haqqında akkreditə edən dövlətin hökumətinə məlumat vermək, akkreditə edən dövlətlə yerləşmə dövləti arasında dostluq münasibətlərini təşfiq etdirmək və iqtisadiyyatı, mədəniyyəti və elm sahəsində onlar arasında qarşılıqlı münasibətləri inkişaf etdirmək funksiyalarını həyata keçirir. Nümayəndəlik başçısı dedikdə, akkreditə edən dövlət tərəfindən bu keyfiyyətdə fəaliyyət göstərmək vəzifəsi həvalə olunmuş şəxs, nümayəndəliyin əməkdaşları dedikdə isə, nümayəndəlik başçısı və nümayəndəliyin personalının üzləri başa düşülməlidir (7, 90)

Nümayəndəlik başçıları üç dərəcəyə bölünürlər: a) dövlət başçıları yanında akkreditə edilən səfirlər və nunsilər dərəcəsi və bu rütbələrə bərabər tutulan başqa nümayəndəlik başçıları; b) dövlət başçıları yanında akkreditə edilən elçilər və internunsilər dərəcəsi; c) Xarici İşlər Nazirliyi yanında akkreditə edilən işlər müvəkkili dərəcəsi. Nümayəndəlik başçıları arasında birincilik və etiketdən başqa, bu və ya digər dərəcəyə mənsub olduğuna görə heç bir fərq qoyulmamalıdır (o cümlədən, cinayət prosesinə münasibətdə immunitet hüququ barədə).

Nümayəndəlik personalının üzvləri diplomatik personalın, inzibati- texniki personalın və xidməti personalın üzvləridirlər. Diplomatik personalın üzvləri isə, nümayəndəlik personalının diplomatik rütbələrə malik olan üzvləridir. Nümayəndəliyin başçısı və ya nümayəndəliyin diplomatik personalının üzvü diplomatik agent hesab edilir. Diplomatik agentin şəxsiyyəti toxunulmazdır. O, heç bir formada həbs edilə və ya tutulub saxlanıla bilməz. Yerləşmə dövləti ona lazımi hörmətlə yanaşmalı və onun şəxsiyyəti, azadlıq və şərəfinə qarşı ola biləcək qəsdlərin qarşısını almaq üçün bütün lazımi tədbirləri görməlidir. Diplomatik agent yerləşmə dövlətinin cinayət yurisdiksiyasından immunitetindən istifadə edir. Diplomatik agentin yerləşmə dövlətinin yurisdiksiyasından immuniteti onu akkreditə edən dövlətin yurisdiksiyasından azad etmir. Diplomatik agentin yurisdiksiya immunitetindən akkreditə edən dövlət imtina edə bilər (111).

İnzibati-texniki personalın üzvləri nümayəndəliyin inzibati-texniki xidmətini həyata keçirən nümayəndəlik personalının üzvləridirlər, xidmətçi personalın üzvləri isə, nümayəndəliyin xidməti üzrə vəzifələri yerinə yetirən nümayəndəlik personalının üzvləridirlər.

Diplomatik kuryer – mənsub olduğu dövlətin Xarici İşlər Nazirliyinin, diplomatik poçtu müşayət etmək onu ünvana çatdırmaq vəzifəsi daşıyan əməkdaşı, dövlət qulluqçusudur. Diplomatik kuryerin səlahiyyətləri xidməti pasprotun olması və xüsusi sənədin – kuryer vərəqəsinin mövcudluğu ilə təsdiq edilir. İmtiyaz və immunitet hüququ olan hər bir şəxs, öz vəzifəsini tutmaq üçün gedərkən yerləşmə dövlətinin ərazisinə qədəm qoyduğu andan və ya əgər həmin şəxs bu dövlətin ərazisindədirsə, onun haqqında xarici işlər nazirliyinə və ya haqqında razılıq əldə edilmiş digər bir nazirliyə məlumat verilən andan həmin imtiyaz və immunitetlərdən istifadə edir. Əgər imtiyaz və immunitetlərdən istifadə edən şəxsin funksiyaları bitirsə, bu imtiyaz və immunitetlər o, ölkəni tərk edən andan və ya bunu etmək üçün ağlabatan vaxt bitdikdən sonra dayandırılır, lakin hərbi münaqişə hallarında belə, həmin vaxta qədər bu imtiyaz və immunitetlər qüvvədə qalır. Lakin bu şəxs tərəfindən özünün nümayəndəlik əməkdaşı funksiyalarını yerinə yetirərkən həyata keçirən əməllərə münasibətdə immunitet qalmaqda davam edir. Nümayəndəlik əməkdaşı öldüyü halında, onun ailə üzvləri onların hüquqları olan imtiyaz və immunitetlərdən yerləşmə ölkəsini tərk etmək üçün ağlabatan müddət keçənədək istifadə etməkdə davam edirlər.

Öz vəzifəsini tutmaq üçün gedərkən və ya öz vəzifəsinə, öz ölkəsinə qayıdarkən diplomatik agent zərurət olduqda, ona viza verən üçüncü dövlətin ərazisindən keçirsə, yaxud bu ərazidədirsə, bu üçüncü dövlət onun keçib getməsini və ya qayıtmasını təmin etmək üçün tələb olunan toxunulmazlıq və bu cür digər immunitetlər verir. Bunlar imtiyaz və immunitetlərdən istifadə edən, diplomatik agenti müşayiət edən və ya ayrılıqda ona çatmaq üçün gedən və ya öz ölkəsinə qayıdan hər bir ailə üzvünə də aiddir.

Azərbaycan Respublikası CPM-in 436-cı maddəsinə əsasən, müvafiq xarici dövlətin və ya benyəlxalq təşkilatın aydın ifadə edilmiş razılığı olduqda, diplomatik immunitet hüququna malik olan şəxslər Azərbaycan Respublikasının yurisdiksiyası altına düşə bilərlər.


**ƏDƏBİYYAT**

1. Abbasova F.M. Cinayət prosesi. Dərslik. Ümumi hissə. Bakı: «Zərdabi MMC» LTD, 2012, 416 s.
2. Azərbaycan dilinin izahlı lüğəti / red. A. Axundov. 4 cilddə. II c. Bakı: Şərq-Qərb, 2006, 792 s.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / red. F.Y.Səməndərov. Bakı: Hüquq yayın evi, 2013, 1120 s.
4. İbayev V.Ə. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri. Maddələr 8-36. Bakı: Qanun, 2004, 770 s.
5. Paşazadə M.A. Hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi prosessual formanın vahidliyini təsbit edən prinsip kimi // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, 2012, № 57, s. 74-79.
6. Лукошкина С.В. Иммунитеты в Российском уголовном судопроизводстве. Дисс. … к.ю.н. Иркутск, 2005, 224 с.
7. Обеднин В.К. О некоторых аспектах юридического иммунитета / Подходы к решению проблем законодательства и правоприменения. Сборник научных трудов. Красноярск, 2002, с. 90-93.
8. Папкова Т.П. Международные стандарты и нормы ООН в области предупреждения правонарушений несовершеннолетних // Российский следователь, 2004, № 10, с. 29-33.
9. Яковенко Е.А. Генезис возникновения и становления института правового иммунитета в теории конституционного права России // Проблемы права, 2010, № 3, с. 103-110.


## ИММУНИТЕТ КАК ПРАВОВАЯ КАТЕГОРИЯ В УГОЛОВНОМ ПРОЦЕССЕ


**Л.И.МАММЕДОВА**



**РЕЗЮМЕ**

Статья посвящена институту иммунитетов в уголовном судопроизводстве. Автором предпринята попытка детально разъяснить сущность института иммунитетов в уголовном процессе и его соотношение с принципом равенства перед законом и судом. В статье, также дана широкая классификация существующих иммунитетов в уголовном процессе.



**Ключевые слова:** уголовный процесс, принцип равенства, иммунитет, привилегия, дифференциация

**IMMUNITY AS A LEGAL CATEGORY IN CRIMINAL TRIAL**

**L.I.MAMMADOVA**

**SUMMARY**

The article is devoted to the institute of immunities in criminal legal proceedings. The author made an attempt to explain the essence of the institute of immunities in criminal trial and its ratio with the principle of equality before the law and the court. The article presents a broad classification of the existing immunities in criminal trial.

**Key words:** criminal trial, principle of equality, immunity, privilege, differentiation